

# RİTMİN ÖVLADI, AHƏNGİN YETİRMƏSİ – NATİQ ŞİRİNOV

Ülviyyə Məmmədova

*Xalq sənəti sahələrinin yaşadılması, gələcək nəsillərə ötürülməsi, təbliği sənətkarların üzərinə düşən böyük məsuliyyətdir. Bu, xalçaçılıqda da belədir, zərgərlikdə də, musiqidə də... Bir də hər sənətkar sənətini kiməsə (yaxud kimlərəsə!) öyrədəcək qədər ustadlaşa bilmir. Böyük ürək, peşəkarlıq, səbr, öz üzərində işləmək bacarığı, yaradıcılıq axtarışlarına meyillilik sənətkarı ustada, həm xalqın, kütlənin, həm də yüzlərlə tələbəsinin, yetirməsinin sevimlisinə çevrilə bilir. Bir xalçaçının öz sənət sirlərini öyrətdiyi yetirmələri, nağıllarımızın dili ilə desək "şəyird"ləri onun yadigar qoyub getdiyi, yuxusuz gecələrinin, duyğularının, fantaziya və düşüncələrinin məhsulu olan xalçalar qədər əhəmiyyətlidir. Çünki o şagirdlər də sabah həmin sənəti yaşadacaq nəsillərə ustad olacaqlar.*

*Həmsöhbətimiz nağara ifaçısı Natiq Şirinov da belə ustadlarımızdandır.*

*Müasir Azərbaycan musiqi sənətinin ən məşhur nümayəndələrindən biri, qədim zərb sənətini yaşadan, ölkəmizdə və onun hüdudlarından cox-çox uzaqlarda layiqincə təmsil edən, gənclərimizə öyrədən və hətta yaradıcılğının bu mərhələsində belə öyrənən sənətkarımız "Azər-İlmə" şirkətinin qonağı olmuşdur.*

*"Azər-İlmə" qonaqlı-qaralı məkandır. Həm respublikamızın müxtəlif yerlərindən, həm də onun hüdudları xaricindən buraya gələn hər bir qonaqda xalçalar, onların toxunması, boyaq işi, kitablarımız, jurnallarımız fərqli təəssüratlar oyadır. Natiq maraqlı qonaqdır. Burada özünü tapmış kimidir. Şüarı "ritm varsa - həyat var" olan sənətkarı xalçanın, daha doğrusu, hananın ahəngi cəlb edir. Hananın ahəngini tutmağa çalışaraq, barmaqları ilə masanı döyəcləyir. Söhbətimiz də bu ahəng üzərində köklənir...*

- Uşaqlıqdan xalçaların əhatəsində olmuşam. Evimizdə, qohumlarımızın evlərində həmişə xalça görmuşəm. Amma yerdə yox. Bizim tərəflərdə xalçanı divardan asırlar. Yəqin ki bu, camaatımızın ona münasibətindən irəli gəlir. İnsan əziz, qiymətli bildiyini üfürə-üfürə saxlayır axı... Həyatımın hər mərhələsində xalça ilə ünsiyyətdə olmuşam. El şənliklərində də, bayramlarda da, konsertlərdə də, Azərbaycan mədəniyyətini təmsil etdiyimiz uzaq-uzaq ölkələrdə də xalça ilə yoldaşı olmuşam. Xalçaların harmoniyası fərqlidir. Onların əhatəsində ifa etmək, səhnəyə çıxmaq bir ayrı zövqdür. Onlar ifaya özünəməxsus şirinlik, akustika əlavə edir; həm tamaşaçını, dinləyicini, həm də ifaçının özünü qanadlandırır, ruhlandırır. Xalçanın yaratdığı mühit, mənzərə ilham mənbəyi kimidir. Rəngarəng, min bir naxışlı xalçaların əhatəsində özünü al-əlvan təbiətin qoynunda, çay kənarında, dağ başında - bir sözlə, ifaçıya ruh verən bir məkanda hiss edə bilirsən. Çünki xalça məkanı, duyğunu, ab-havanı təmsil edə bilir. Bu mənada xalça ilə musiqi arasında böyük oxşarlıq var. Hər ikisi bütövdür. Xalça rəngləri, naxışları ilə, musiqi akkordları, rəngləri ilə...

Natiq Şirinov 1975-ci ildə Bakıda əslən Göyçə mahalından olan sənətkar ailəsində dünyaya göz açmışdır. Orta təhsilini 1993-cü ildə bitirmiş, 1985-1989-cu illərdə indiki Tofiq İsmayılov adına musiqi məktəbində Azər Əliyevdən dərs almışdır. "Cücələrim" ansamblının üzvü kimi keçmiş SSRİ-nin bir çox şəhərlərində qastrol səfərlərində olmuşdur.
Peşəkar yaradıcılığa 1993-cü ildən başlayan N.Şirinov bir çox sənətkarlarla çiyin-çiyinə işləmişdir. 1999-cu ildə Alim Qasımov tərəfindən aldığı təklifi sənətində dönüş nöqtəsi hesab edir. Natiqin bu görkəmli sənətkarın ansamblına gəlişi ilə Azərbaycan muğamında ilk dəfə qaval, tar, kaman "üçlüyü"nə nağara da əlavə edilmişdir. Yaradıcılıq potensialını daha qabarıq və fərqli şəkildə təqdim etmək imkanı qazanan Natiq Şirinov Alim Qasımovu müşayiət etməklə bərabər, bir sıra konsertlərdə solo çıxışlar da etmişdir. Sənətkar Belçika, Almaniya, Fransa, İsveçrə, İtaliya, Hollandiya, Yaponiya, Çin, İspaniya, Türkiyə, İran, Rusiya və s. kimi ölkələrdə milli nağara sənətimizi uğurla təmsil etmişdir.

**- Deyəsən, xalça toxunuşunu ilk dəfədir ki, izləyirsiniz?**

- Əslində bu prosesin uzaqdan-uzağa bir neçə dəfə şahidi olmuşam. Lakin bu qədər rahat və doğma bir ortamda ilk dəfədir ki, xalça toxunduğunu görürəm. Uşaqlıq xatirələrimdə dumanlı şəkildə nələrsə var. Amma insan yaşının bu mərhələsində, ömrünün bu çağında xalça işinin gözəlliyini bir başqa cür duyur, hiss edir. Bayaqdan hananın sehrinə düşmüşəm. Qəribədir, hər xalçaçının öz ritmi var. Yəqin ki, bu müxtəliflik naxışlardan, ölçülərdən, həm də xalçanın məhz hansı hissəsinin toxunmasından asılıdır. Bu xalçaçı xanımlar necə gözəl bir kompozisiya yaratdıqlarından xəbərsizdirlər. Ana laylası kimi şirin, təkrarsız və təbiidir bu kompozisiya... Onu heç bir peşəkar bəstə, melodiya ilə müqayisə etmək olmaz.







**- Bəzi sənətkarlar məşhur bəstəkarları öz əsərlərində muqisi alətləri ilə yanaşı, müxtəlif təbiət hadisələrinin, əmək alətlərinin, hətta nəqliyyat vasitələrinin səsindən də yararlanmışlar. Müasir dünya musiqisində bu tendensiya daha güclüdür. Sizin də, "Qatar" kompozisiyanız bu baxımdan uğurlu bir addımdır.**

- Bilirsinizmi, hər bir sənət sahəsi, müasirliyindən, yaxud qədimliyindən asılı olmayaraq dövrün nəbzini tutmalıdır. Çünki hər dövrün öz tələbi, öz zövqü var. Zaman dəyişir, onunla birgə insanların – bizi dinləyən, izləyən, sənətimizi dəyərləndirən tamaşaçıların, dinləyicilərin zövqü də dəyişikliyə uğrayır. Müasir dinləyici yeknəsəqliyi, ümumi standartları sevmir. Bəzən bir ailənin üzvlərinin belə ayrı-ayrı zövqlərə köklendiyinin şahidi oluruq. Musiqi zövqü də azaddır. Sənət buxovları qəbul

etmir. Hamı eyni cür düşünə bilmədiyi kimi, eyni cür də ifa edə bilmir. Bayaq hər toxucunun fərdi üslubundan danışdıq. Onlar eyni ahənglə toxusalar, xalçalar bu dərəcədə gözəl və təkrarsız olmayacaq. Hər biri o xalçalara öz ürəyinin bəstəsini, melodiyasını verir. Hər toxucu xanım o naxışlara öz sevincini, kədərini, sevgisini, xəyallarını köçürür. Biz musiqiçilər də eləyik. Məsələn, mən öz kompozisiyalarımı yaşamasam, yarada bilmərəm. Lakin hər çıxışımda da eyni kompozisiya müxtəlif cür alınır. Çünki sənət adamı da digər insanlar kimi hər zaman eyni hisslərlə yaşamır. Bu, bəlkə tamaşaçının gözündən yayınır. Əsl sənətkarın gözündən, diqqətindən belə detallar yayına bilməz. Bəzən elə ilhamlı olursan ki, kompozisiyaya sövq-təbii olaraq çoxdan axtarışında olduğun, amma tapa bilmədiyin, yaxud da tapıb "uyğunlaşdıra" bilmədiyin bir naxış vurursan. Bu, ilahi təbin məhsuludur. Təbiət ən böyük bəstəkardır. İnsan da onun bir parçası olaraq, təbiəti təqlid etməyə, yamsılamağa çalışır. Musiqiçilərin də qeyd etdiyiniz axtarışlarına haqq qazandırıram. Bu axtarışların nəticələri insanları özünə çox cəlb edir.

**- Sizcə, nağara ilə hananın müştərək bir kompozisiyası nə dərəcədə uğurlu olar?**

- Buraya gələndən öz-özümə götür-qoy etdiyim məsələdir bu. Necə olub ki, indiyədək bu haqda fikirləşməmişik?! Əsl sənət əsəri olacaq. Təsəvvür edin ki, hər hananın yanında bir nağaraçı əyləşir və xalçaçının ritmini tutur. Musiqi və ilmələrin vəhdətindən gözəl bir kompozisiya yaranır. Sadəcə, məsələyə bir qədər yaradıcı, həm də səbrlə yanaşmaq lazımdır. Azərbaycan xalçası özünəməxsus melodiyadır, ritmdir. Xalçaçılıq səhnə üçün deyil. Musiqi səhnə, kütlə üçündür. Bizim üzərimizə düşən isə xalçaçılığın ritmini dinləyicilərə yaradıcı şəkildə çatdırmaqdır. Zənnimcə bu, analoqu olmayan bir layihə olacaqdır.

**- Sizin yaradıcılığınız həm keyfiyyət, həm də miqyas baxımından Azərbaycan musiqi sənətində yeni bir mərhələdir. Qədim Azərbaycan nağarası sanki öz imkanlarını yenidən kəşf etmiş kimidir. Siz nağaranın yalnız oynaqlıq, şuxluq yaradan bir alət olmadığını, daha dərin hisslərin, düşüncələrin tərənnümçüsü kimi göstərə bildiniz.**

- Digər musiqi alətləri kimi, nağara da öz imkanlarını ona yaradıcı tərzdə yanaşan sənət adamlarının üzünə açır. Kimsə nağaraya sadəcə zərb aləti kimi yanaşa bilər. Mənim və ətrafıma toplanan gənclərin nəzərində isə, nağara bütün musiqi alətlərinin məcmusudur. Onun akustikası, səs çalarları insanı fərqli aləmlərə aparır. Yenə də hər bir sənətkarın məsələyə yaradıcı münasibətindən çox şey asılı olur. Əgər bu gün az da olsa tamaşaçının zövqünü oxşaya biliriksə, bu axtarışlarımızın, mütaliələrimizin, gərgin məşqlərimizin bəhrəsidir.

**- Azərbaycanda təmsil etdiyiniz sənət sahəsi üzrə görkəmli ifaçılarımız çox olub. Ayrı-ayrı musiqi məktəblərində, Milli Konservatoriyada da zərb alətləri tədris olunur. Bəs, Rəhbərlik etdiyiniz "Natiq" Ritm Qrupu hansı zərurətdən yaradıldı?**

- Qeyd etməliyəm ki, bu gün respublikamızda bütün sənət sahələrinin təmsilçiləri kimi, biz musiqiçilər üçün də yaratmaq, fəaliyyət göstərmək, öz bilik və bacarıqlarımızı gənc nəslə öyrətmək üçün geniş imkanlar yaradılmışdır. Ölkə prezidenti cənab ilham Əliyevin, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın ayrı-ayrı sənət sahələrinə göstərdikləri diqqət və qaygı göz önündədir. İndi istedadı olan hər kəs özünü, yaradıcılığını sərgiləmək imkanına malikdir. "Natiq" Ritm Qrupu 2001-ci ilin may ayında yaradılmışdır. Standartlardan uzaq, öz qəlbinin, ruhunun səsini dinləyən yeniyetmələrimizi, gənclərimizi bir araya toplamaq niyyətində idik. Niyyətimiz baş tutdu. Ətrafımıza istedadlı gənclər toplaşdı. Bəziləri üçün çətin oldu. Bəziləri isə dözdülər; sənət yollarını keçə bildilər. Və bu gün biz o istedadlı və dözümlü gənclərlə birlikdə çalışırıq. Həmin vaxtdan indiyədək məsuliyyətli və şərəfli bir yol qət etmişik. Qrupumuz bir sıra mühüm dövlət konsertlərində, tədbirlərində iştirak etmiş, xarici ölkələrdə qastrol səfərlərində olmuşdur. İlk böyük konsertimiz 2006-cı ildə keçirilmişdir. 2004-cü ildə "Mənim dünyam-I" , 2006-cı ildə "Mənim dünyam-II" adlı musiqi albomlarımız işıq üzü görüb. 2012-ci ildə Bakıda keçirilən Avroviziya müsabiqəsi zamanı qədim Azərbaycan musiqi mədəniyyətinin simvolu olan qaval daşını səhnəyə çıxardıq. Hər bir çıxışdan sonra bizi səhnədən tamaşaçıların hərarətli alqışları yola salır. Bu, böyük etimaddır. Çünki tamaşaçı alqışı – onun ümidini, gözləntilərini əks etdirir. Bizim hər çıxışımız isə əvvəlkindən daha maraqlı və yaddaqalan olmalıdır.

**- Söhbətimiz ahəngdar alındı. Düzü, ortaq mövzular tapa biləcəyimizdən narahat idim.**

- Mən isə əksinə... Xalça ən qaradinməz adamı da danışdırar. Həyatımda ilk dəfə xalçanın ritmini tutdum. Güman edirəm ki, bu, təsirsiz ötüşməyəcək.

**- O zaman "Azərbaycan xalçaları" sizə yeni-yeni yaradıcılıq uğurları arzulayır.**

- Təşəkkür edirəm. Xalçanın ritmi müqəddəsdir. Hamımız bu ritmi tutmağa çalışaq!



